

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (21.635)

*27 noyabr 2016-cı il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda növbəti iməciliklər keçirilmişdir



Təbiətin keşiyində durmaq, onu qorumaq hər kəsin müqəddəs borcudur. Bu gün muxtar respublikada ətraf mühitin mühafizəsi, insanların sağlam ekoloji mühitdə yaşaması və yaşıllıqların genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Hər il muxtar respublikada yüz hektarlarla yeni yaşıllıq zolaqları, meyvə bağları salınır. Bu tədbirlər ekoloji tarazlığı qorumaqla yanaşı, həm də meyvəçiliyin inkişafında mühüm əhəmiyyətə malikdir.

Noyabrın 26-da Naxçıvan Muxtar Respublikasında növbəti iməcilik keçirilmiş, müxtəlif meyvə və üzüm tingləri əkilmiş, meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı 14 hektarlıq meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər. Ötən iməciliklər dövründə ərazidə 10 minə yaxın müxtəlif meyvə, eləcə də üzüm tingləri əkilmişdir. Hər il bağdan bol məhsul götürülür. Payız iməcilikləri dövründə meyvə bağında 1400 üzüm tingi əkilmişdir. İməcilik iştirakçıları meyvə bağına aqrotexniki qulluq göstərmiş, ərazidə bərpa əkini aparmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, gələcəkdə ərazidə üzüm əkininin davam etdirilməsi barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda "Arılar arasında" tamaşasına baxış olmuşdur





Noyabrın 26-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında yazıçı-dramaturq Elçin Əfəndiyevin "Arılar arasında" əsəri əsasında hazırlanmış eyniadlı tamaşaya baxış olmuşdur.

Tamaşa başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, Azərbaycanın Xalq yazıçısı, ictimai və dövlət xadimi Elçin Əfəndiyev ötən əsrin 60-cı illərində ədəbi fəaliyyətə başlamış və geniş oxucu kütləsinin hörmətini qazanmışdır. Xalq yazıçısı indi də mədəniyyətimizin, ədəbiyyatımızın və incəsənətimizin inkişafı naminə xidmət göstərir. Ədibin povest və hekayələrdən ibarət kitabları, seçilmiş əsərləri, ədəbi tənqidi məqalələri həmişə diqqət mərkəzindədir. Elçin Əfəndiyevin əsərləri dünyanın müxtəlif dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Onun bir sıra əsərləri ekranlaşdırılmış, pyesləri Azərbaycanla yanaşı, xarici ölkələrin də teatrlarında öz uğurlu səhnə həllini tapmışdır. Naxçıvan teatrı bir neçə dəfə yazıçı-dramaturq Elçin Əfəndiyevin yaradıcılığına müraciət etmiş, 2001-ci ildə "Mənim ərim dəlidir", 2002-ci ildə "Mənim sevimli dəlim", 2009-cu ildə isə "Ah, Paris, Paris" pyesləri uğurla tamaşaya qoyulmuşdur. Elçin Əfəndiyevin "Arılar arasında" əsəri Naxçıvan Dövlət Musiqili Dram Teatrında ilk dəfədir ki, tamaşaya qoyulur.

Sonra "Arılar arasında" tamaşasına baxış olmuşdur.

"Arılar arasında" pyesində kənd və şəhər, eləcə də nəsillər arasında uzaqlaşma öz əksini tapıb. Tamaşada müəllif bütün problemlərin müqabilində arı ailəsini nümunə kimi götürür. Göstərilir ki, istər cəmiyyətdə, istərsə də ailədə hər bir fərd ona həvalə edilmiş işin öhdəsindən gəlməyə, nizam-intizamlı olmağa, qarşıya çıxan çətinliyi dəf etməyə çalışmalı, bunun üçün iradə nümayiş etdirməlidir. İnsanda bu keyfiyyətlərin formalaşması isə mənəvi tərbiyə ilə bağlıdır. Arılardakı nizam-intizam, arı ailəsindəki qarşılıqlı münasibətlər və hər ailə üzvünün üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməsi insan cəmiyyəti üçün örnək olmalıdır. Səmimi və zəhmətkeş insanların qocalanda belə həyata olan sevgisi, gələcəyə inamı da əsərin əsas ideyasını təşkil edir. Tamaşada təbiətə və insanlara sevgi, gənclərə yüksək amallar uğrunda yaşamaq tövsiyə olunur.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşanın rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov, aktyorlardan Zülfiyyə Zeynalova, Zəminə Baxşəliyeva, Səyyad Məmmədov, Şölə Novruzbəyli, Nurbəniz Niftəliyeva və Anar Eyvazov öz ifaları ilə uğurlu səhnə həllinə nail olmuşlar.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Baş nazirinin müavini, yazıçı-dramaturq Elçin Əfəndiyev səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşlər.

Yazıçı-dramaturq Elçin Əfəndiyev uğurlu səhnə əsərinə görə kollektivə təşəkkür edərək demişdir: "Arılar arasında" pyesinin ümummilli liderimiz Heydər Əliyevin vətəni Naxçıvanda səhnəyə qoyulması mühüm əhəmiyyət daşıyır. Naxçıvan teatrı böyük mədəniyyət ocağıdır. Görkəmli Azərbaycan ziyalı və maarifçilərinin on doqquzuncu əsrin sonlarında əsasını qoyduqları Naxçıvan teatrının ölkəmizdə və bütövlükdə Şərqdə teatr sənətinin inkişafında mühüm xidmətləri vardır. Naxçıvan teatrında yaradılan müasir şərait, formalaşan kollektiv sənətə böyük qayğıdan xəbər verir. Bu gün Naxçıvan Muxtar Respublikasında aparılan quruculuq işləri, əldə olunan müasir inkişaf mədəniyyət sahəsini, eləcə də teatrı da əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək demişdir: Naxçıvan teatrında müxtəlif janrlarda əsərlər tamaşaya qoyulmuşdur. Teatrda fəlsəfi əsərlərə də müraciət olunmuşdur. Yazıçı-dramaturq Elçin Əfəndiyevin "Arılar arasında" pyesində müasir dövrdə cəmiyyəti narahat edən məsələlərə toxunulur. Nobel mükafatı laureatı yazıçı Moris Metterlinq 1901-ci ildə yazdığı "Arıların həyatı" əsərində cəmiyyətin inkişafında arıların həyatından nümunə götürməyi ön plana çəkmişdir. "Arılar arasında" pyesində də arıların həyatından nümunə gətirilərək səhnələşdirilir və böyük tamaşaçı kütləsinə çatdırılır.

Ali Məclisin Sədri uğurlu əsərə görə yazıçı-dramaturq Elçin Əfəndiyevə təşəkkür etmiş, kollektivə yaradıcılıq uğurları arzulamışdır.

Sonda tamaşanın yaradıcı heyəti ilə birlikdə xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sədərək gömrük sərhəd-buraxılış məntəqəsi üçün yeni kompleks tikilir

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən aldığımız məlumata görə, 18 hektara yaxın ərazidə inşa olunan yeni infrastruktur "bir dayanacaq" prinsipinə uyğun qurulan, yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və rüsumsuz ticarət mağazasından ibarət müasir gömrük kompleksidir.

Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla sərnişin və minik, iki zolaqla yük nəqliyyat vasitələri hərəkət edəcək.

Sərnişin keçid zalları kompleksin ortasında – üçmərtəbəli inzibati binanın birinci mərtəbəsindədir. Gömrük nəzarəti zonasında sərnişinlərin hərəkəti üçün tunellər yaradılacaq, yaşıl və qırmızı kanallar formalaşdırılacaq.

Yük xətti, əsasən, rəsmiləşmə zalı və anbar binasından ibarətdir. Tranzit və idxal istiqamətində gələn və əks istiqamətdə hərəkət edən avtonəqliyyat vasitələrinin hərəkəti bir-birindən ayrı nəzərdə tutulub. Yük xətti üzərində iritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirməkdən ötrü X-Ray rentgen nəzarət-yoxlama kompleksi qurulub.

Qanunvericiliyə əsasən, gömrük nəzarətindən güzəştli qaydada keçməli olan şəxslərə xidmətin göstərilməsi üçün ayrıca binada və yeməkxanada, anbar və rəsmiləşdirmə zalının tikinti işləri artıq yekunlaşdırılıb. Hal-hazırda inzibati binanın, o cümlədən keçid zallarının tikintisi davam etdirilir. Kompleksin ərazisində əlavə yardımçı binalar da inşa olunacaqdır.

Qeyd edək ki, Sədərək gömrük sərhəd-buraxılış məntəqəsində xidmətin səmərəli təşkili üçün lazımi iş şəraitinin yaradılması istiqamətində görülən işlər Azərbaycan gömrük sistemində həyata keçirilən ən genişmiqyaslı layihələrdən biridir. Yeni gömrük kompleksinin istifadəyə verilməsi ilə Naxçıvanın Qərbə açılan qapısı modern görkəmə qovuşacaq, burada gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsi təmin olunacaq, muxtar respublikanın əlverişli tranzit imkanlarından və turizm potensialından səmərəli istifadə imkanları üçün əlavə stimul yaranacaqdır.

Xatırladaq ki, Naxçıvanda gömrük infrastrukturunun yenidən qurulması və maddi-texniki bazanın müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində digər gömrük orqanlarının infrastrukturu da tam müasirləşdirilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir

***Azərbaycanda iqtisadiyyatın bütün sahələri kimi, elektroenergetikanın inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin ölkəmizə rəhbərliyinin birinci dövründən – ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsi, respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. O vaxta qədər bütün elektrik stansiyalarının ümumi gücü 2200 meqavat təşkil edirdi və elektrik enerjisi təminatının tam ödənilməsində problemlər mövcud idi.***

Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisinə başlanılmış və hər il bir bloku istifadəyə verilən bu stansiya sayəsində ölkəmizin enerjiyə olan tələbatı tam ödənilmişdir. Həmin dövrdə 22 meqavatlıq Araz Su Elektrik Stansiyası, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları istismara verilmişdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə əvvəllər Zaqafqaziyanın vahid energetika sistemi və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsilə təchiz edilirdi. Mənfur ermənilərin düşmənçilik siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik verilişi dayandırıldığından yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürülürdü.

Ötən əsrin 90-92-ci illərində elektrik enerjisinin verilişində ciddi məhdudiyyət tətbiq olunurdu. Naxçıvan şəhərinə sutka ərzində 5-6 saat, kəndlərə isə 3-4 saat elektrik enerjisi verilirdi. Yanacaq qıtlığı üzündən qazanxanaların, istehsal müəssisələrinin, nasos stansiyalarının fəaliyyəti dayandırılmışdı. Kəskin kontinental iqlim şəraiti olan Naxçıvanın mənfi 40 dərəcəyə düşən soyuğundan qorunmaq üçün insanlar qeyri-standart elektrik qızdırıcılarından istifadə etmək məcburiyyətində qalırdılar. Bu da elektrik xətlərinin, transformatorların sıradan çıxmasına səbəb olur, bəzən də qrafik üzrə verilən elektrik enerjisindən istifadəyə maneçilik törədirdi. İnsanlar evlərində çıraq işığında, soyuq divarlar arasında yaşayır, amma ümidlərini itirmirdilər. O tarixi günləri yaşayan insanların qəlbində xalqı düçar olduğu bəladan qurtaracaq Heydər Əliyev inamı adlı alınmaz bir qala qurulmuşdu. Tarix kitablarından oxuduğum Böyük Vətən müharibəsi illərində Leninqrad (indiki Sankt-Peterburq) şəhərinin 900 günlük mühasirəsini, blokadada saxlanılmasını, insanların hansı məhrumiyyətlərlə üzləşməsini o dövrdə, yəni ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan və naxçıvanlılar öz həyatlarında yaşayır, tarixin sərt sınaqlarına sinə gərir, mübarizə aparırdılar. Leninqrad şəhərinin mühasirəsi cəmi 900 gün çəkdi. Muxtar respublikamızın mühasirəsi isə hələ ötən əsrin 20-ci illərində – sovetlər dönəmində qədim türk yurdu olan Zəngəzur mahalının və Mehri rayonunun ermənilərə "hədiyyə edilməsi" və Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı salınması ilə başlanmış, 1990-cı ildə isə bütün dövrlərdə olduğu kimi, məqamı gözləyən erməni xisləti özünü göstərmiş, Naxçıvan Muxtar Respublikası blokadaya salınmışdı.

Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1991-ci ilin dekabr ayında Türkiyə Respublikasının "Aralıq" yarımstansiyasından Naxçıvan Muxtar Respublikasının "Sədərək" yarımstansiyasına 31,5 kilovoltluq elektrik verilişi xətti çəkilmiş və Sədərək rayonuna 3-4 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır.


*Arpaçay Su Elektrik Stansiyası*

İran İslam Respublikasından elektrik enerjisinin alınması üçün Araz Su Elektrik Stansiyasının ərazisində 132/110/10 kilovoltluq 40 meqavolt-amper güclü "Araz" yarımstansiyası tikilib quraşdırılmış, 132 kilovoltluq Araz-Araz elektrik verilişi xətti çəkilmiş və 1992-ci il dekabr ayının 3-də istismara verilmişdir ki, bu da qonşu dövlətdən 30 meqavat gücündə elektrik enerjisi almağa şərait yaratmışdır. 1992-ci il dekabr ayının 20-də İran İslam Respublikasının "Culfa" yarımstansiyası ilə Naxçıvan Muxtar Respublikasının "Culfa" yarımstansiyasını əlaqələndirən 10 kilovoltluq elektrik verilişi xətti istismara verilmiş, bu xətlərlə Culfa rayonuna 6-7 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Həmçinin 1992-ci ilin dekabr ayında Türkiyə Respublikasından gətirilərək 220 kilovoltluq "Babək" yarımstansiyası ərazisində quraşdırılmış 4 ədəd – hər birinin gücü 15 meqavat olan və dizel yanacağı ilə işləyən turbin qurğuları istifadəyə verilmişdir. 1993-cü ildə isə Türkiyə Respublikasının "İqdır" transformator yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına 87,5 kilometr uzunluqlu 154 kilovoltluq ikidövrəli elektrik verilişi xəttinin çəkilişi başa çatdırılmış və Naxçıvana Türkiyə Respublikasından 50-60 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Beləliklə, 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat gücündə elektrik enerjisi daxil olmuş, muxtar respublikanın elektrik enerjisi tələbatçılarına sutka ərzində 12 saat elektrik enerjisi verilmişdir.

## Naxçıvanın enerji təhlükəsizliyi tam təmin olunub

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyası bu gün uğurla davam etdirilir. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2005-ci il mayın 2-də "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası muxtar respublikada da uğurla həyata keçirilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla işləmə rejiminə keçməsi təmin olunmuş, 220 kilovoltluq "Babək" yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmiş və sonrakı mərhələlərdə bu istiqamətdə kompleks işlər davam etdirilmişdir. Nəticədə, bu gün muxtar respublikanın enerji təminatı tamamilə daxili istehsal hesabına ödənilir.

Elektrik stansiyalarının tikilib istifadəyə verilməsi enerji təhlükəsizliyinin təmin olunmasında son dərəcə əhəmiyyətli rola malikdir.


*Naxçıvan Günəş Elektrik Stansiyası*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın elektrik enerjisinə olan tələbatının daxili imkanlar hesabına ödənilməsinin strateji əhəmiyyət kəsb etdiyini bildirərək demişdir: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

Son illər muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları tikilmişdir. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında isə Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası istismara verilmişdir. 2014-cü ildə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları fəaliyyətə başlamışdır. Muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. Hazırda Ordubad rayonu ərazisində 36 meqavat gücündə yeni derivasiyatipli su elektrik stansiyası tikilir. 14 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının isə texniki-iqtisadi əsaslandırılması və ilkin layihə sənədləri hazırlanmışdır. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 8 elektrik stansiyasından 6-sı son 20 ildə istismara verilmişdir. Enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il aprel ayının 7-də "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının açılışında muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır".***


*Biləv Su Elektrik Stansiyası*

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması istiqamətində də kompleks tədbirlər həyata keçirilmiş, yeni transformator yarımstansiyaları tikilmiş, mövcud olanlar yenidən qurulmuşdur. Son illər "Culfa", "Sədərək", "Çeşməbasar", "Xal-xal", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan", "Ordubad", "Qıvraq" və "Nehrəm" yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

İstehsal edilən elektrik enerjisindən səmərəli istifadə olunması və elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılmış, vətəndaşların ev və mənzillərinə rəqəmsal elektron sayğaclar qoyulmuş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Hazırda Naxçıvan şəhərində daha müasir, ön ödənişli, smartkarttipli sayğacların quraşdırılması davam etdirilir.

## Alternativ enerji mənbələrindən istifadə edilir

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq, Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Burada işlər Belçika Krallığının "Soltech" şirkəti tərəfindən həyata keçirilmişdir. Stansiyada 78 min 684 ədəd ən müasir "şüşə-şüşə" tipli Günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılmışdır.

Cari ildə də bu istiqamətdə işlər davam etdirilmiş, Culfa rayonunda külək elektrik stansiyasının tikintisi üçün ölçü qurğuları alınmış və quraşdırılmışdır. Bir il ölçü aparıldıqdan sonra 2017-ci ilin avqust ayında bu ərazidə hansı gücdə və sayda külək enerjisi qurğuları qoyulmasının əsaslandırılması mümkün olacaqdır.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su və digər alternativ elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə Naxçıvan daha çox elektrik enerjisi ixrac edəcək.

Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq, 80-90 meqavat gücündə elektrik enerjisi istehsal edilir.

Yaz-yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq, muxtar respublikamızın elektrik enerjisinə tələbatı 80-85 meqavat, qalan aylarda isə 45-50 meqavat olur. Yaz aylarında su elektrik stansiyalarında 60-68 meqavata qədər elektrik enerjisi istehsal edilir.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılmışdır. İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta elektrik enerjisi ixrac etməyə imkan verir.

Təkcə bir faktı qeyd edək ki, muxtar respublikamızda alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalı ümumi istehsalın 64,4 faizini təşkil edir. Bu göstərici çox nadir hesab olunur. Dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizdən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

*Bəli, bir vaxtlar evimizin ən vacib əşyası kimi daim gözümüzün qarşısında olan çıraq indi tarixi eksponata çevrilmişdir. Həmin çıraq işığında qəbul olunan qərarlar isə Naxçıvanı nura qərq etmişdir. Hər bir ailənin evindən süzülüb gələn işıq seli, yol kənarlarını, park və xiyabanları, müasir memarlıq üslubunda inşa olunan binaların fasadlarını bəzəyən işıqlar – sayrışan ulduzları xatırladan bu ecazkar mənzərə günümüzün reallığı, son illərin bəhrəsidir.*

**Kərəm HƏSƏNOV**

***Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

# Muzey ziyarətləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin, tələbələrin, idmançıların muzeylərə kollektiv gedişi davam etdirilir.***



Noyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

Məlumat verilib ki, görkəmli şair-dramaturq Hüseyn Cavidin ev-muzeyi ədibin anadan olmasının 100 illiyi ilə əlaqədar 1982-ci ildə vaxtilə onun yaşadığı evdə yaradılıb. Muzeyin fondunda 9 mindən yuxarı eksponat qorunub saxlanılır ki, hazırda bu eksponatların 500-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Muzeydə ədibin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri, üzərində şairin avtoqrafı olan əsərlər, tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları, şairin oğlu Ərtoğrol Cavidin və qızı Turan xanımın əsərləri, Hüseyn Cavid haqqında müxtəlif dövrlərdə nəşr olunmuş kitablar görkəmli ədibin həyat və yaradıcılığı barədə dolğun təəssürat yaradır.

Xatirə kompleksi ziyarət zamanı qeyd olunub ki, böyük ədibin xatirəsinin əbədiləşdirilməsində, onun zəngin irsinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu, misilsiz xidmətləri olub. 1982-ci ilin noyabr ayında məhz ulu öndərin təşəbbüsü və böyük qayğısı nəticəsində ölməz şairin nəşi Uzaq Sibirdən öz doğma yurduna – Naxçıvan torpağına gətirilib, burada dəfn olunaraq xatirəsi əbədiləşdirilib. 1996-cı ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə ədibin məzarı üzərində əzəmətli məqbərə ucaldılıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

Noyabrın 26-da Naxçıvan şəhərində fəaliyyət göstərən digər muzeylərə də müxtəlif nazirliklərin, komitələrin və agentliklərin gedişləri təşkil edilib. Həmin gün Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri Xatirə Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində olublar.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar və Səhiyyə nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika, Meliorasiya və Su Təsərrüfatı komitələrinin, Televiziya və Radio Şurasının, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və “Şərq qapısı” qəzetinin kollektivləri Ədəbiyyat Muzeyində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Miqrasiya və Baytarlıq xidmətlərinin kollektivləri Dövlət Bayrağı Muzeyində olublar.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları Heydər Əliyev Muzeyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin kollektivləri “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini, Daşınmaz Əmlak və Torpaq Məsələləri, Standartlaşdırma, Metrologiya və Patent, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitələrinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini ziyarət ediblər.

**“Şərq qapısı”**

*Yeni nəşrlər*

# Naxçıvanşünaslığa mühüm töhfə

***Azərbaycan tarixşünaslığı qarşısında duran aktual problemlərdən biri də ölkələrin inzibati ərazilərini, müəyyən vaxtlarda sərhədlərinin dəyişilməsini, yaşayış məntəqələrinin yerləşməsini, onların tərəqqi və tənəzzül proseslərini öyrənən tarixi coğrafiya məsələlərinin araşdırılmasıdır. Müasir dövrdə bədxah qonşularımız olan ermənilərin Azərbaycana ərazi iddialarının güclənməsi, hətta torpaqlarımızın bir hissəsinin işğal olunması bu məsələnin obyektiv şəkildə araşdırılmasını daha da aktuallaşdırır. Bu baxımdan ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvan bölgəsinin tarixi coğrafiyasının dərindən öyrənilməsinə, bu iddiaların əsassızlığının sübuta yetirilməsinə də böyük ehtiyac vardır.***

1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə elmin digər sahələri ilə yanaşı, Azərbaycanda nisbətən cavan elm sahəsi olan tarixi coğrafiya ilə əlaqədar tədqiqatların aparılmasına da böyük diqqət yetirilməyə başlanılmışdır. Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsinə ciddi əhəmiyyət verən ümummilli lider Heydər Əliyevin “Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında” 12 fevral 1999-cu il tarixli Sərəncamında Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi də mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Sərəncamın II bəndinə uyğun olaraq, Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən elmi qurumun qarşısına qoyulan əsas vəzifələrdən biri də qədim diyarımızın tarixi coğrafiyasına həsr olunmuş kitabların nəşrinə nail olunması və “Naxçıvan tarixi” adlı xəritələr toplusunun hazırlanması idi. Məhz bu tarixi sənəd əsas götürülməklə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun və Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun əməkdaşları tərəfindən “Naxçıvan tarixi atlası” hazırlanaraq 2010-cu ildə nəşr etdirilmişdir. Son illərdə Naxçıvan tarixinin müxtəlif problemlərinin fundamental şəkildə öyrənilməsi bölgənin tarixi coğrafiyasının öyrənilməsini də zərurətə çevirmiş, AMEA Naxçıvan Bölməsində bu istiqamətdə tədqiqatların aparılmasına başlanılmış, artıq bu sahədə müəyyən işlər görülmüşdür. Bu baxımdan Elnur Kəlbizadənin “Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı)” mövzusunda dissertasiya hazırlayaraq uğurla müdafiə etməsini və həmin tədqiqat işinin monoqrafiya şəklində nəşr olunmasını Naxçıvanşünaslığa mühüm töhfə hesab etmək olar. Yeni nəşr olunmuş monoqrafiya həm də ulu öndər Heydər Əliyevin 1999-cu ildə imzaladığı Sərəncamın növbəti mərhələsinin icrası istiqamətində atılmış addımlardan biridir.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxmış monoqrafiyanın elmi redaktoru və ön sözün müəllifi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, rəyçilər AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev və tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayevdir. 6 dildə olmaqla, 240 elmi mənbə, ədəbiyyat, arxiv sənədləri, dövri mətbuat materialları əsasında yazılmış monoqrafiya giriş, 3 fəsil, nəticə, xəritə və şəkillərdən ibarətdir.

Monoqrafiyanın giriş hissəsində tədqiqatçı mövzunun öyrənilməsi zərurətindən söz açmış, Naxçıvanın tarixi coğrafiyası ilə bağlı aparılmış tədqiqatlardan bəhs etmiş, bu istiqamətdə tədqiqata cəlb edilmiş tarixi mənbələr haqqında geniş məlumat vermişdir.

Monoqrafiyanın “XII-XV əsrlərdə Naxçıvanın tarixi coğrafiyası” adlanan I fəslində tədqiqatçı Eldənizlər dövründə Naxçıvanın tarixi coğrafiyası, monqolların ərazini işğalı, Hülakülərin hakimiyyəti dövründə Naxçıvanın tarixi coğrafiyası ilə bağlı məsələlər və XIV əsrin sonu, XV əsrdə hərbi siyasi proseslərin Naxçıvan ərazisinin dəyişməsinə təsiri haqqında məlumat vermişdir. Fəsildə haqlı olaraq göstərilir ki, Azərbaycan Atabəyləri dövründə (1136-1225) Naxçıvan yüksək inkişaf mərhələsinə çatmış, dövlətin siyasi mərkəzlərindən birinə çevrilmiş, Naxçıvan şəhəri bir müddət bu nəhəng dövlətin paytaxtı olmuşdur. Bu dövr bölgənin, xüsusilə Naxçıvan şəhərinin sosial-iqtisadi və mədəni həyatında xüsusi bir yüksəliş – intibah dövrüdür. Bu intibah Naxçıvan diyarının daşıdığı “xass vilayət”i statusunda, vilayət şəhərlərinin tərəqqisində də özünü göstərmişdir. Bəhs olunan dövrdə Naxçıvanın daşıdığı inzibati statusun ayrı-ayrı hökmdarların hakimiyyət dövrləri üzrə müəyyənləşdirilməsi, bu dövr Naxçıvan vilayətinin sərhədlərinin müəyyənləşdirilməsində mənbə boşluğunun doldurulması üçün komparativ-qarşılaşdırma metodunun tətbiq edilməsi tədqiqatçının tarixi tədqiqatların metodologiyasına dərindən bələd olmasının göstəricisi hesab edilə bilər.




XII-XIII yüzilliklərdə Naxçıvanın dairələrə bölündüyünü qeyd edən müəllif hesablamalar aparmaqla Eldənizlər dövründə Naxçıvan vilayətinin ərazisinin 9609 kvadratkilometr olduğunu müəyyənləşdirmişdir. İnzibati bölgüyə daxil olan müxtəlif vahidlərdən bəhs edən tədqiqatçı Əlincə adının formalaşması ilə bağlı da çox maraqlı elmi fikirlər irəli sürmüşdür. Həmçinin o, orta əsr tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvininin haqqında bəhs etdiyi Naxçıvan qalalarının lokalizasiyasının aparılmasına cəhd göstərmişdir.

Monoqrafiyada Hülakülər tərəfindən yaradılmış Naxçıvan tüməninin sərhədlərinin nə qədər böyük bir ərazini əhatə etməsinin faktlarla sübuta yetirilməsi, ərazilərin riyazi hesablanmasının həyata keçirilməsi, bölgə şəhərləri ilə bağlı tədqiqatların aparılması, xüsusilə Əncan şəhərinin lokalizasiyası ilə bağlı maraqlı mülahizələrin irəli sürülməsi tədqiqatçının uğuru kimi qiymətləndirilə bilər.

Naxçıvanın XV əsr tarixi Azərbaycanın Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətləri ilə bağlıdır. Naxçıvanın Çuxursəd vilayətinin tərkibinə daxil edilməsi, Çuxursəd vilayətinin tərkibində digər yeddi hakimliklə yanaşı, səkkizinci hakimlik kimi Naxçıvanın yerinin xüsusilə fərqləndirilməsi, XIV əsr alman müəllifi İ.Şiltberqerin əsərinin Naxçıvanın tarixi coğrafiyası ilə bağlı hissələrinin geniş təhlil edilməsi monoqrafiyanın əhəmiyyətini daha da artırır.

Monoqrafiyanın ikinci fəsli XVI-XVII əsrlərdə Naxçıvanın tarixi coğrafiyasına həsr edilmişdir. Məlumdur ki, Azərbaycan Səfəvi dövlətinin yaranması xalqımızın dövlətçilik tarixində yeni səhifə açmışdır. Səfəvilər dövlətinin mövcud olduğu dövrdə (1501-1736) Osmanlılarla fasilələrlə aparılan uzunsürən, üzücü müharibələr Naxçıvandan da yan keçməmiş, ona böyük dağıntı və fəlakətlər gətirmişdir. Monoqrafiyanın bu fəslində Naxçıvanın ölkə statusunda Azərbaycan bəylərbəyliyinin tərkibində olduğu dövr fərqləndirilmiş, bu dövrün xronoloji çərçivəsi ilə bağlı dəqiqləşdirmələr aparılmışdır. Müəllifin fikrincə, Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil olduğu dövrdə Naxçıvan ölkəsi Naxçıvan, Şərur, Dərələyəz, Bazarçayı, Məvaziyi-xatın, Mülki-Arslan, Dərəşahbuz və Əlincə mahallarından ibarət olmuşdur.

I Osmanlı idarəçiliyi dövründə (1587-1603) Naxçıvanın tarixi coğrafiyasının tutarlı mənbələr əsasında öyrənilməsi, Osmanlı mənbələrində verilən məlumatların Azərbaycan tarixşünaslığı baxımından qiymətləndirilməsi, aparılan təhlillər zamanı elmi obyektivliyin qorunub saxlanılması da monoqrafiyanın müsbət məziyyətlərindəndir. Burada ayrı-ayrı inzibati vahidlərdən bəhs olunması, mənbələrin verdiyi zəngin məlumat imkanlarından istifadə edilərək Naxçıvanın ayrı-ayrı inzibati vahidlərinin sərhədlərinin müəyyənləşdirilməsi monoqrafiyanın dəyərini artıran əlamətlərdəndir.

Naxçıvanın Azərbaycan bəylərbəyliyinin tərkibindən çıxarılaraq Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil edildiyi dövrün tarixi ilə bağlı dəqiqləşdirmələrin aparılmasına göstərilən cəhdlər, bu dövrdə bölgənin ərazisinin, sərhədlərinin, inzibati vahidlərinin, şəhərlərinin, əhalinin etnik tərkibinin dərindən öyrənilməsi də Naxçıvanın tarixi coğrafiyası istiqamətində mövcud olan ciddi bir boşluğu doldurmaqdadır.

Monoqrafiyanın III fəslində XVIII əsrin I yarısında Naxçıvan diyarının tarixi coğrafiyasından bəhs edilir. Bu fəsildə Səfəvilər dövlətinin tənəzzülü dövründə Naxçıvanın tarixi coğrafiyasında baş vermiş dəyişikliklər müəllif tərəfindən diqqətdə saxlanılmışdır. Məlumdur ki, 1724-cü ildə Osmanlı dövləti Naxçıvanı tutmuş, burada Osmanlı idarə sistemi (1724-1735) yaradılmışdır. Tədqiqatçı bu dövrü şərti olaraq II Osmanlı idarəçiliyi dövrü adlandırmışdır. Müəllifin Naxçıvan sancağına daxil olan digər nahiyələrlə yanaşı həm ərazicə, həm də yaşayış məskənlərinin sayına görə ən böyük olan, sonradan Ermənistana verilən Dərələyəz, həmçinin Sisyan nahiyəsinin tarixi coğrafiyasına ayrıca diqqət yetirməsi xüsusi qeyd edilməlidir. Fəsildə tarixən Azərbaycan torpağı olmuş Dərələyəz və Sisyan haqqında geniş tədqiqatlar aparılması və bu sahədə sanballı nəticələr əldə olunması mənfur ermənilərə ciddi bir cavab hesab oluna bilər.

Naxçıvanın Əfşarlar dövləti zamanındakı tarixi coğrafiyasının öyrənilməsi mənbələrin azlığı baxımından müəyyən çətinlik törədir. Məlumdur ki, Nadir şahın dövründə də (1736-1747) Naxçıvan çətin günlər yaşamışdır. Monoqrafiyada bu məqamlara xüsusi diqqət yetirilmişdir. Nadir şahın öldürülməsindən sonra Azərbaycan ərazisində yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı olmuşdur. Tədqiqatçı monoqrafiyanı Naxçıvan xanlığının yarandığı ilk dövrlərin tarixi coğrafiyasını təsvir etməklə yekunlaşdırmışdır.

Tədqiqatdan aydın olur ki, XII-XVIII yüzilliyin I yarısını əhatə edən zaman çərçivəsində Naxçıvan adı altında birləşən ərazilər çox böyük olmuşdur. Ancaq təəssüflər olsun ki, həmin ərazilərin bir qismi tarixin müxtəlif dövrlərində Azərbaycandan qoparılaraq digər xalqlara, xüsusilə ermənilərə verilmişdir. Bütün bunların monoqrafiyada ətraflı şərh olunması onun dəyərini daha da artırmışdır.

Monoqrafiyanın sonunda müəllif əldə etdiyi elmi nəticələri ümumiləşdirmişdir. Əsərin yazılmasında zəngin ədəbiyyatlara, hətta tarixşünaslığımızda çox az müraciət olunan maraqlı tarixi mənbələrə, arxiv sənədlərinə istinad olunmuşdur. Elnur Kəlbizadə tədqiqat apardığı dövrdə bölgənin bir sıra yaşayış məskənlərini gəzmiş, bəzi məsələlərin dəqiqləşdirilməsi, mənbələrin məlumatları ilə əhalinin yaddaşında qalan məlumatların qarşılaşdırılması üçün ayrı-ayrı kəndlərdə yaşayan yaşlı sakinlərlə görüşmüş, topladığı etnoqrafik materialları da tədqiqata cəlb etmişdir.

İşin əlavələr hissəsində təqdim edilən xəritə-eskizlər ciddi əhəmiyyətə malikdir. Bu baxımdan Ordubad şəhərinin XVII əsr planının bəzi nüanslarını əks etdirən fotoşəkillərin əldə olunması və tədqiqata daxil edilməsi böyük əhəmiyyət kəsb edir.

*Ümid edirik ki, Naxçıvanın orta əsrlər dövrünün tarixi coğrafiyası ilə bağlı monoqrafiyanı elmi ictimaiyyətə təqdim edən gənc tədqiqatçı gələcəkdə bu sahədə tədqiqatlarını daha da dərinləşdirəcək, xüsusilə doğma yurdun tarixi coğrafiyasının digər dövrlərinin öyrənilməsi ilə bağlı elmi axtarışlar aparacaq və bu istiqamətdə yeni tədqiqat əsərləri ortaya çıxaracaqdır.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Müasir tibbi avadanlıqlar, insan zəkası və xəstəyə ümid verən həkimlər

## Dövlət qayğısının bariz nümunəsi olan Naxçıvan Muxtar Respublika Xəstəxanasında məhz bunların şahidi olduq

***Qədim dövrlərdən bəri insanlar həmişə həkimlərə böyük ehtiram göstəriblər. Bəlkə də, bu, ona görədir ki, həmin peşə sahiblərində canıyanarlıq, əziyyət çəkənə yardım etmək, xəstəyə əlac tapmaq kimi ali xüsusiyyətlər vardır. Qədim hindistanlı müdriklər nahaq yerə demirdilər ki, "Atadan, anadan, müəllimdən və dostlardan qorxmaq olar, ancaq həkimin qarşısında qorxu hiss etməməlisən. Çünki o, xəstəyə həm ata, həm ana, həm dost, həm də ustaddır". Əgər həkim xəstə üçün ən doğma, əziz insanları əvəz edə bilirsə, bu, onun peşəsinə vurğunluğundan irəli gəlir. Naxçıvan Muxtar Respublika Xəstəxanasında da həkimlərimiz bura müraciət edən xəstələrə məhz belə münasibət göstərir, onların dərdinə əlac tapır, necə deyərlər, sağlamlıqlarının keşiyində dayanırlar. Şahidi olduğum bir hadisə də belə qənaətə gəlməyimə səbəb oldu.***

Ötən günlərdə yolum xəstəxanaya düşmüşdü. Məqsədim əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması naminə əsaslı şəkildə təmir edilən, yenidənqurma işləri aparılan xəstəxanada insanlara göstərilən tibbi xidmətin səviyyəsi barədə məqalə hazırlamaq idi. Həqiqətən də, dövlətimizin böyük diqqəti, qayğısı sayəsində xəstəxana yüksək standartlara cavab verən, qabaqcıl firmaların istehsalı olan ən müasir tibbi avadanlıqlarla, laboratoriya və müayinə cihazları ilə təmin olunub. Yəni dövlətimiz əhalinin sağlamlığının etibarlı qorunması üçün burada yüksək səviyyədə şərait yaradıb, bütün işləri tam həyata keçirib. Bəs həkimlərimiz necə, yaradılan bu şəraitdən səmərəli istifadə edərək müasirliyi ilə yanaşı həm də çox mürəkkəb funksiyaları ilə seçilən tibbi avadanlıqlardan təlimata uyğun istifadə edərək xəstələrə düzgün diaqnoz qoyulmasını həyata keçirə bilirlərmi? Axı həmin avadanlıqlarla işləmək üçün nəzəri biliklərlə yanaşı, əsaslı texniki biliklərə də yiyələnmək lazımdır.

Səhiyyə ocağına gəlirəm və araşdırmalarım nəticəsində müasir dövrün mürəkkəb tibbi avadanlıqlarından biri olduğunu öyrəndiyim Maqnit Rezonans Tomoqrafiya (MRT) müayinələrinin aparıldığı Şüa diaqnostika şöbəsinə doğru addımlayıram. Əvvəlcə onu deyim ki, Naxçıvan Muxtar Respublika Xəstəxanasında müxtəlif şöbələrə müraciət etmək üçün xeyli sayda insanın olduğunu gördüm. Bu, bir baxıma yaxşı, digər tərəfdən isə mənfi haldır. Yaxşıdır, ona görə ki, insanlarımız hər şeydən dəyərli olan canlarını bizim həkimlərimizə əmanət edərək xəstəliklərinə xarici ölkələrdə deyil, məhz burada çarə arayırlar. Bu, onu göstərir ki, xəstələr yerli həkimlərimizə inanırlar, xəstəxanadakı müasir tibbi avadanlıqlarda müayinələrdən keçməyə can atırlar. Digər tərəfdən yeniyeni xəstəliklərin ortaya çıxması, necə deyərlər, xəstəliklərin cavanlaşmasıdır. Dövrün bəlasıdır bu... Bəlkə də, payız mövsümü ilə əlaqədardır...

Bu düşüncələrdən məni Şüa diaqnostika şöbəsindən gələn səs-küy ayırır. Ehtimal edirəm ki, yəqin həkimlər xəstəni narazı salıblar, o da etirazını bildirir. Haqsız yerə tibb işçilərimizin qarasınca danışa-danışa sürətlə ora yaxınlaşıram və gördüyüm mənzərənin təsirindən yerimdəcə donub qalıram. Hay-küy salan qoca kişinin qolundan iki cavan oğlan bərk-bərk tutub müayinə otağına doğru aparmağa çalışırlar. O isə müqavimət göstərir və qışqıraraq deyir: "Ay bala, məndən əl çəkin! Ölməmişdən əvvəl məni o qaranlıq qutunun içinə salmaq istəyirsiniz? Getmirəm!" Məsələ aydın idi. Yaşlı kişi müasir texnologiyanın görünüşündən vahiməyə düşmüşdü. Nə etsin? Ömrünün böyük bir hissəsini dünyaya meydan oxuyan, ölkələri işğal edən dövlətdə yaşayan bu şəxs həmin supergücün var olduğu dövrdə də belə bir avadanlıq görməmişdi. Sözün düzü, son vaxtlara qədər mən də görməmişdim.



Vaxt var idi ki, televiziyada xarici ölkələrdəki tibb müəssisələrini, oradakı tibbi avadanlıqları gördəndə heyrətlənirdik. Ağlımıza da gəlməzdi ki, 25 illik müstəqillik tarixi olan bir dövlət bu cür möcüzələrə imza atacaq, blokada vəziyyətində yaşayan bir diyarda belə yüksək səviyyəli tibb müəssisəsi yaradacaq, buranı ən müasir avadanlıqlarla təchiz edəcək...

... Səs-küyə müayinə otağından çıxan gülərüz, gənc həkim yaşlı kişi ilə söhbət etməyə başlamışdı. Bir az kənarda dayandığıma görə söhbətin nədən getdiyini eşitməsəm də, arada dayının "Yox əşşi!", "Əla!" deməsindən belə başa düşdüm ki, kişi artıq yola gəlir. Bir neçə dəqiqədən sonra həmin xəstə əmin addımlarla MRT müayinəsi otağına getdi. Qapıdan içəri boylanarkən gördüyüm mənzərə heç də həmin ağsaqqalın dediyi kimi "qaranlıq qutu" deyildi. Əksinə, burada çox geniş və işıqlı, görkəmi ilə insanı heyrətə düşürən bir tibbi avadanlıq var idi...

Səbirlə müayinənin nəticəsini gözlədim. On dəqiqədən sonra xəstənin müayinəsi bitdi və o, müayinələrinin nəticələrini alaraq deyə-gülə oradan ayrıldı. Məhz bu məqamda yuxarıda qeyd etdiyim qədim hindistanlı müdriklərin sözləri yadıma düşdü.

Sonradan öyrəndim ki, xəstəni müayinə olunmağa razı salan radioloq-həkim Aminə xanımdır. O, 2004-cü ildə yüksək balla Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinə qəbul olub. Təhsil aldığı illərdə qabaqcıl, çalışqan tələbə kimi hörmət qazanıb. Əla qiymətlərlə oxumaqla yanaşı, ali məktəbin ictimai həyatında da fəallıq nümayiş etdirib. Fakültəni fərqlənmə diplomu ilə bitirdikdən sonra 2010-cu ildən qardaş Türkiyənin ən tanınmış xəstəxanalarından biri olan Kocaeli Eyitim və Araşdırma Xəstəxanasında 5 illik uzmanlıq proqramı çərçivəsində radiologiya sahəsi üzrə ixtisaslaşıb. Həmçinin Türkiyənin bir neçə xəstəxanasında da kurslarda, elmi konfranslarda iştirak edib, nəzəri və təcrübi biliklərini daha da artırıb.

Hippokrat andı içib diplom aldığı günü bir an belə unutmayan Aminə həkim dedi ki, həmin gün həkim məsuliyyətini ömürlük üzərimə götürdüyümü tam aydınlığı ilə dərk etdiyim gün idi:

– Baxın, Hippokrat 2500 il əvvəl yazdığı məşhur "And"ında da, digər əsərlərində də gənc həkimlərə örnək olaraq yazırdı ki, həkim xeyirxah, ədalətli, insanpərvər olmalı, xarici görkəmini unutmamalı, geyimi və davranışı sadə olmalıdır. Onun həkimdən tələb etdiyi humanizm isə mənsub olduğu sosial təbəqədən asılı olmayaraq, bütün xəstələrə xidmət edir. Bunlar sadə məsələlər deyil və biz həkimlərin şərəf borcumuz sayılır.

Müasir dövrdə radiologiya sahəsinin inkişafı barədə danışan Aminə həkim qeyd etdi ki, günümüzdə ən çox müraciət edilən şöbələrin başında Şüa diaqnostika şöbəsi dayanır. Çünki artıq elə bir xəstəlik yoxdur ki, radioloqiyanın imkanlarından istifadə edərək onun diaqnostikasını aparmaq mümkün olmasın. Bu imkanlardan istifadə edərək vaxtilə çox çətin aşkarlanan xəstəliklərə daha dəqiq diaqnoz qoymaq artıq mümkündür. Hətta beyində olan törəmələrə biopsiya aparmadan radioloji müayinə metodları ilə düzgün, dəqiq diaqnoz qoymaq olar.

Yuxarıda qeyd etdiyim hadisəni xatırlatdıqda Aminə həkim bildirdi ki, bu müayinələr qapalı mühitdə aparıldığı üçün insanların bir çoxunda həyəcan hissi yaranır: "Bizdəki avadanlıq tibb elminin ən böyük nailiyyətlərindən biridir. Ən son modeldir, 2015-ci il istehsalıdır. Ancaq bəzi xəstələrimiz müayinələrin qapalı mühitdə, qaranlıq və hətta havasız olduğunu düşünərək çəkinirlər. Amma qətiyyən belə deyil. Xəstəxanamızda hazırda istifadə edilən MRT avadanlığı ən son buraxılış olduğu üçün çox genişdir, işıqlıdır, yüksək səviyyədə havalandırma sisteminə malikdir. Əvvəlki avadanlıqlarla müqayisədə bu avadanlıqda çəki məhdudiyyəti yoxdur. İstənilən çəkidə olan xəstə rahatlıqla müayinə oluna bilir. Hamilələrin, uşaqların MRT müayinəsindən keçməsi ilə bağlı heç hansı qadağa yoxdur. Amma müayinələrimiz həkim göndərişi ilə həyata keçirilir. Klinik göstəriş olmadan heç bir xəstənin müayinəsi düzgün deyil. Biz bu hallara ciddi diqqət edirik".

Aminə Hüseynova əlavə etdi ki, MRT avadanlığının üstünlüyü şüalanmadan istifadə olunmaması, hətta ölçüsü bir neçə millimetr olan hüceyrənin təsvirini görmək imkanı verməsi, baş beyin və onurğa beyni, qaraciyər, mədəaltı vəzi, böyrəküstü vəzilər, kiçik çanaq orqanları və sair üzvlərin istənilən patologiyasını vaxtında aşkara çıxarmağa şərait yaratmasıdır.

Həqiqi həkimin peşəkarlığının gücünün təkcə erudisiyasının, bilik və bacarığının dərinliyində yox, həm də qəlbinin mərhəmətində olduğu fikrinə həkim-radioloq belə münasibət bildirdi:

– Çalışdığım Naxçıvan Muxtar Respublika Xəstəxanası bu gün xəstələrimizin ümid yeri, insanların şəfaət ünvanıdır. Qürurverici haldır ki, bu şəfa ocağının imkanları bu gün dünyanın ən müasir tibb müəssisələrinin meyarlarına uyğun gəlir. Dünya səhiyyəsinin bütün tələblərinə cavab verən xəstəxanada tibb sənayesinin son nailiyyətlərinə söykənən texniki vasitələr, kompüter müayinə avadanlığı və sistemləri var, xəstələrin rahatlığı üçün lazım olan hər cür şərait yaradılıb. Bu şəraiti bizə dövlətimiz yaradıb, rəhbərimizin diqqət və qayğısı sayəsində bütün bunlar biz həkimlərin, o cümlədən əhalinin istifadəsinə verilib. Dünyanın tanınmış təhsil ocaqlarında təcrübə keçmiş biz həkimlərin də borcu bu qabaqcıl səhiyyə ocağında bilik və bacarıqlarımızı peşəkarlıqla əhalinin sağlamlığının qorunmasına sərf etməkdir.

Sevindirici haldır ki, bu gün həkim-radioloq Aminə Hüseynova kimi düşünən həkimlərimiz kifayət qədərdir. Xüsusilə onların tibb sahəsində dünyanın qabaqcıl təcrübəsinə yiyələnməsi böyük əhəmiyyət kəsb edir. Həkimin də qeyd etdiyi kimi, məhz buna görədir ki, hətta Bakıdan və qonşu ölkələrdən Naxçıvana gəzinti məqsədilə gələnlər də xəstəxanada yaradılan şərait barədə eşidərək burada müayinədən keçirlər. Muxtar respublikadan xarici ölkələrə üz tutanların sayı da artıq minimuma enib.

*Bəli, muxtar respublikamızın səhiyyə sistemində gördüyümüz yeniliklər, müasir innovasiyalar vətəndaşlarımıza nə qədər rahatlıq bəxş edir, məmnunluq, fərəh gətirir. Axı xoşbəxtlik, ilk növbədə, sağlamlıqdan başlayır.*

**Rauf ƏLİYEV**

*"Naxçıvan" Universitetində görkəmli ədəbiyyatşünas alim Abbas Zamanovun anadan olmasının 105 illiyinə həsr olunmuş elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov açıb.*

## Ali təhsil ocağında elmi konfrans

Konfransda universitetin müəllimləri Təranə Qəbulovanın "Abbas Zamanovun yaradıcılıq yolu", Rəna Əliyevanın "Abbas Zamanov haqqında xatirələr", filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyevanın "Abbas Zamanov M.Ə.Sabir irsinin tədqiqatçısı kimi", Anar Abuzərlinin "Ədəbi-mədəni, nəzəri fikir tarixində Abbas Zamanov imzası" mövzularında çıxışları olub.

Bildirilib ki, Abbas Zamanovun çoxşaxəli fəaliyyəti ədəbiyyatşünaslıq elmimizin inkişafında ayrıca bir mərhələ təşkil edir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatının, yaradıcılıq fəaliyyətinin öyrənilməsi və təbliğ edilməsində Abbas Zamanovun çox böyük rolu vardır. Bütün mənalı həyatını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına, ədəbi irsimizin öyrənilməsinə, təbliğinə həsr edən fədakar alim haqqında bir çox tədqiqat əsərləri yazılıb, onun həyat və fəaliyyəti araşdırılıb.

Sonda tədbir iştirakçıları Abbas Zamanovun həyat və fəaliyyətini əks etdirən slayda baxıblar.

**Nuray ƏSGƏROVA**

## Sambo birinciliyi başa çatıb



***İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində 2002-2004-cü illər təvəllüdlü yeniyetmələr arasında sambo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Yarışdan öncə çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov yarışın keçirilmə məqsədi haqqında idmançılara geniş məlumat verib. Sonra Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxış edərək idmançılara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 9 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı mübarizə aparıb. Beynəlxalq Sambo Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Məhəmməd İsayev, Abbas İsfəndiyarov, Məhəmməd Şirinov, Zahid Əhmədov, Fuad Əşrəfli, Məhəmməd Həsənov, İsmayıl Abbaslı, Ayaz Əliyev və Aqşin Rüstəmov müvafiq olaraq 30, 34, 38, 42, 46, 50, 55, 60 və 66 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

## Culfa rayonunda mahnı və rəqs müsabiqəsi



*Culfa Rayon Gənclər və İdman İdarəsi, Təhsil, Mədəniyyət və Turizm şöbələrinin istedadlı yeniyetmə və gənclərin üzə çıxarılması məqsədilə təşkil etdikləri milli mahnılar və rəqs müsabiqəsinə yekun vurulub.*

Culfa Rayon Mədəniyyət Evində keçirilən tədbirdə 30-a yaxın yeniyetmə və gənc iştirak edib. 2 nominasiya üzrə keçirilən tədbirdə Culfa şəhərindəki uşaq bağçasının "Körpə fidanlar" rəqs qrupu birinci yerə layiq görülüb. Gülüstan kənd mədəniyyət evinin yetirməsi İnci Quluzadə ifa etdiyi "Ana Vətən" rəqsinə görə ikinci, rayon Uşaq Yaradıcılıq Mərkəzi "Arşın mal alan" rəqs qrupu üçüncü olub.

Yekunda qalib və fərqlənən iştirakçılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 905